# 525-ci qəzet

1 avqust 2012-ci il, çərşənbə, №136 (3692). Qiyməti 20 qəpik

www.525.az


# Əli Həsənov: "Qəbələ RLS məsələsində hər iki tərəfi qane edən variantlar axtarılır"

"PAYIZDA MÜXALİFƏT NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ PLANLAŞDIRIRIQ"

**Azərbaycan Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun APA-ya müsahibəsi.**



***— Mətbuatda bəzi hökumətyönlü qəzetlərin bağlanacağı barədə məlumatlar dərc olunub. Bu, nə qədər həqiqətə uyğundur?***

— Bunlar hamısı söz-söhbətdir. Ayrı-ayrı adamların fantaziyası və maraqlı dairələrin dezinformasiyasıdır.

***— Siz bir müddət əvvəl QHT və mətbuat nümayəndələri ilə görüşlər keçirdiniz. Bu görüşlərdə səsləndirilən təkliflərlə əlaqədar hansı işlər görülür?***

— Həmin təkliflər üzərində işlənilir. Hazırda mərkəzi və yerli icra hakimiyyəti orqanlarının bununla bağlı rəyləri öyrənilir.

***— Qəzet satışı sahəsində problemlərin hələ də qaldığı deyilir...***

— Eyni zamanda, qəzet satışı ilə bağlı da yerlərdəki vəziyyət öyrənilir. Araşdırılır, təhlil olunur. Yəqin ki, sentyabr ayından bu istiqamətdə qəbul olunmuş qərarlar, edilmiş düzəlişlər, həmçinin digər yeniliklər haqqında məlumatlar veriləcək.

***— Analoji görüşün müxalifət nümayəndələri ilə də olacağı bildirilirdi. Belə bir görüş nə vaxt keçiriləcək?***

— Payız üçün belə bir görüş planlaşdırırıq.

***— Qəbələ RLS-lə bağlı "Nezavisimaya qazeta" bəzi maraqlı iddialarla çıxış edib. Bu yazılanlar nə qədər doğrudur və danışıqlarda son durum necədir?***

— Qəbələ RLS-lə bağlı danışıqlar gedir. Əlbəttə, bu danışıqlarda Azərbaycan tərəfinin öz maraqları, öz yanaşması, Rusiya nümayəndələrinin öz maraqları, öz yanaşmaları var. Hər halda, biz bu məsələdə maksimum konstruktiv mövqe nümayiş olunacağını, Rusiya və Azərbaycanı təmsil edən insanların ən optimal, hər iki tərəfi qane edəcək qərarlar qəbul edəcəyini gözləyirik. Bu, elə məsələdir ki, güzəştlər yalnız bəlli çərçivədə mümkündür. Ondan kənar hər hansı tərəfdən bu güzəştlərin edilməsi qarşı tərəfin ciddi itkisi ola bilər. Bu məsələdə tam düşünülmüş, hər iki tərəfi qane edən variantlar axtarılır. Hesab edirik ki, belə qərarlar da qəbul olunacaq.

# Elmar Məmmədyarov Fransa xarici işlər nazirini Azərbaycana dəvət edib

Fransaya rəsmi səfəri çərçivəsində xarici işlər naziri Elmar Məmmədyarov 2012-ci il iyulun 30-da Fransa Respublikasının xarici işlər naziri Loran Fabius ilə görüş keçirib. Görüş zamanı Azərbaycan və Fransa arasındakı əlaqələrin hazırkı durumu və inkişaf perspektivləri, eləcə də beynəlxalq və regional məsələlər müzakirə olunub. Bu barədə APA Xarici İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən məlumat verir. Görüşdə Nazir Elmar Məmmədyarov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Fransa Respublikasının prezidenti cənab Fransua Ollanda ünvanlanmış məktubunu nazir Loran Fabiusa təqdim etmiş və onun yüksək ünvana çatdırılmasını xahiş edib.

Söhbət əsnasında bu il Fransa və Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 20-ci ildönümünün qeyd edildiyini xüsusi vurğulayan nazir E.Məmmədyarov L.Fabiusu Azərbaycana səfərə dəvət edib və bu dəvət fransız naziri tərəfindən məmnuniyyətlə qəbul edilib. Nazir L.Fabius iki ölkə arasında siyasi, iqtisadi, enerji və humanitar sahədə əməkdaşlığın hazırkı inkişaf dinamikasından məmnunluğunu ifadə edərək Azərbaycanın Fransa üçün vacib iqtisadi tərəfdaş olduğunu vurğulayıb. İki ölkə arasında mədəni əməkdaşlıqdan bəhs edərkən nazir Fabius Bakıda inşa edilməkdə olan fransız liseyinin ərsəyə gəlməsi üçün Azərbaycan hökuməti tərəfindən göstərilən səylərin Fransız hökuməti tərəfindən yüksək dəyərləndirildiyini bildirib və bu liseyin iki xalq arasında dostluq tellərinin daha da güclənməsinə öz vacib töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Görüş zamanı Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi istiqamətində aparılan danışıqlar prosesi ətrafında müzakirələr aparılıb və nazir E.Məmmədyarov Fransanın münaqişənin həlli istiqamətində səylərini gücləndirəcəyinə ümidvar olduğunu bildirib.

Daha sonra nazirlər BMT Təhlükəsizlik Şurasının gündəliyində duran aktual məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Səttar Mehbalıyev: "Azərbaycanda işsiz vətəndaşların sayı 250 min nəfərdən çoxdur"



"Azərbaycanda işsiz vətəndaşların sayı 250 min nəfərdən çoxdur". APA-nın məlumatına bunu "Həmkarlar İttifaqları və gənclərin məşğulluğu: qlobal çağırışlar və yeni yanaşma" mövzusunda subregional konfransda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Mehbalıyev bildirib. Onun sözlərinə görə, Ermənistanın Azərbaycana təcavüzü işsiz gənclərin sayının artmasına səbəb olub: "İşğal nəticəsində Azərbaycan vətəndaşlarının 300 mini iş yerindən məhrum olub".

S. Mehbalıyev bildirib ki, Azərbaycanda gənclərin sayı sürətlə artır, əhalinin 35 faizi 16-35 yaş olan gənclərdir. Ölkədə iqtisadi fəal əhalinin 27 faizini, məşğul əhalinin isə 25,5 faizini gənclər təşkil edir. Konfederasiya sədri MDB ölkələrindəki işsizlik vəziyyəti barədə də danışıb. Onun sözlərinə görə, bir çox ölkələrdə gənclər arasında işsizlik yaşlılara nisbətən 2-3 dəfə çoxdur, bəzi MDB ölkələrində isə işsizlərin ümumi sayının 40 faizini gənclər təşkil edir.

## Hava necə olacaq?

Bakıda və Abşeron yarımadasında avqustun 1-də hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-25, gündüz 31-36 dərəcə isti olacaq. Abşeron çimərliklərində dəniz suyunun hərarəti Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh və Zaqulbada 25-26, Buzovna, Mərdəkan və Şüvəlanda 26-27, Türkan, Hövsan, Şıx və Sahildə 27-28 dərəcə təşkil edəcək.

Azərbaycanın rayonlarında sabah hava şəraitinin gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 21-26, gündüz 33-38, dağlarda gecə 13-18, gündüz 23-28 dərəcə isti olacaq.

## İşğalçı Ermənistan ordusu bir neçə istiqamətdən atəşkəsi pozub

Ermənistan Silahlı Qüvvələrinin bölmələri iyulun 30-da və 31-nə keçən gecə Ermənistan Respublikasının Noyemberyan rayonunun Şavarşavan və Voskevan; İcevan rayonunun Paravakar kəndlərində; Krosnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə; işğal olunmuş Ağdam rayonunun Sarıcalı kəndi yaxınlığında; Goranboy və Gədəbəy rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən atəşkəs rejimini pozublar. Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, düşmən cavab atəşi ilə susdurulub.

## Suriya erməniləri Qarabağa köçürülə bilər

Daşnaksutyun Partiyasının işğal olunmuş Azərbaycan ərazisi olan Dağlıq Qarabağdakı ofisində Suriya ermənilərinin problemləri ilə bağlı xüsusi komitə yaradılıb. APA-nın "yerkramas.org" saytına istinadən verdiyi məlumata görə, toplantıda Suriya ermənilərinin Dağlıq Qarabağa köçürülməsi məsələsi müzakirə olunub. Ermənilərin işğal etdikləri Qubadlı, Zəngilan və Laçın rayonunun bir hissəsində yaratdıqları "Kaşataq" adlı qondarma rayonun rəhbəri Suren Xaçatryan Suriya ermənilərindən bu əraziyə köçmək üçün müraciət aldığını deyib. O, artıq 1 ailəni yerləşdirmək üçün razılığa gəldiklərini və daha 5 ailəni qəbul etməyə hazır olduqlarını bildirib. S. Xaçatryan son hadisələrdən əvvəl Suriyadan 7 ailənin gəldiyini və 5 ailənin burada qaldığını söyləyib.

## Əsgərimiz özünü güllələyib

Azərbaycan Ordusu daha bir əsgərini itirib.

APA-nın məlumatına görə, hadisə Müdafiə Nazirliyinin Goranboyda yerləşən "N" saylı hərbi hissəsində qeydə alınıb. Hərbi hissədə xidmət edən əsgər Mehdi Bahadır oğlu Sultanov vəfat edib. Əsgərin avtomat silahdan açılan atəş nəticəsində öldüyü bildirilir. İlkin ehtimala görə, M. Sultanov tabeliyindəki silahdan açılan atəş nəticəsində dünyasını dəyişib.

Faktla bağlı araşdırma aparılır.

Qeyd edək ki, M. Sultanov Bakının Sabunçu rayonundan həqiqi hərbi xidmətə çağırılıb.

# Baş Prokurorluq işgəncə ilə bağlı məlumatlara münasibət bildirdi

Baş Prokurorluq İlham Əmiraslanovun cinayət işi ilə bağlı məlumat yayıb. Qurumun mətbuat xidmətindən APA-ya verilən məlumatda bildirilir ki, son günlər bəzi kütləvi informasiya vasitələrində Sabirabad rayonunun Əsgərbəyli kənd sakini Əmiraslanov İlham Səraslan oğlunun həbs edildikdən sonra polis əməkdaşları tərəfindən döyülməsi nəticəsində qulaq pərdəsinin deşilməsi və həmin xüsusatın Penitensiar Xidmətin Müalicə müəssisəsinin həkimi tərəfindən təsdiq edilməsi barədə həqiqətə uyğun olmayan məlumatlar yayılıb: "Həmin informasiya tərəfimizdən qəti şəkildə təkzib olunur və bununla əlaqədar bildiririk ki, İlham Əmiraslanov qanunsuz olaraq odlu silah saxladığına və gəzdirdiyinə görə 2012-ci il iyunun 7-də Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilmiş əməliyyat tədbirləri nəticəsində saxlanılıb və həmin tarixdə qeyd edilən idarənin İstintaq şöbəsində barəsində Cinayət Məcəlləsinin 228.1-ci maddəsi ilə cinayət işi başlanıb. İyunun 9-da İlham Əmiraslanov iş üzrə təqsirləndirilən şəxs qismində cəlb edilməklə ona Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə ittiham elan edilmiş və məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib".




Qeyd olunub ki, istintaq zamanı İ.Əmiraslanovun bütün hüquqları, o cümlədən müdafiə hüququ təmin edilib. O, istintaqa verdiyi ifadələrində, eləcə də məhkəmədə barəsində həbs qətimkan tədbiri seçilərkən törətdiyi cinayəti səmimi etiraf edib və peşmançılıq çəkdiyini bildirib. Lakin İ.Əmiraslanov Baş Prokurorluğa şikayət ərizəsi ilə müraciət edərək tutularkən işgəncəyə məruz qaldığını və ona qarşı polis əməkdaşları tərəfindən digər qanunsuz hərəkətlərə də yol verildiyini bildirib. İ.Əmiraslanovun ərizəsi əsasında Baş Prokurorluqda müvafiq araşdırma aparılıb, eyni zamanda Məhkəmə-tibbi ekspertizası təyin edilib. Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi tərəfindən verilmiş rəydə İ.Əmiraslanovun bədən səthində 8 iyun 2012-ci il tarixə və şəraitə uyğun hər hansı bir xəsarət və onun izi aşkar edilməyib.

Araşdırma zamanı İ.Əmiraslanovun əsassız olaraq cinayət məsuliyyətinə cəlb edilərək həbs edilməsi, tutularkən polis əməkdaşları tərəfindən işgəncələrə məruz qalması və ona qarşı digər qanunsuz hərəkətlərə yol verilməsi barədə müraciətində göstərdiyi xüsusatlar öz təsdiqini tapmadığından toplanmış material üzrə 21 iyul 2012-ci il tarixdə cinayət işinin başlanması rədd edilib. İ.Əmiraslanov, onun müdafiəçisi və digər şəxslərin çoxsaylı müraciətləri nəzərə alınaraq onun barəsində olan cinayət işi üzrə 26 iyul 2012-ci il tarixdə komisyon məhkəmə-tibbi ekspertizası təyin edilib. Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi tərəfindən verilmiş 27 iyul 2012-ci il tarixli rəylə müəyyən edilib ki, İ.Əmiraslanovun başında, hər iki qulağın təbil pərdəsində və qulaqətrafı nahiyələrdə, eləcə də bədənin digər sahələrində 8 iyun 2012-ci il tarixə və şəraitə uyğun hər hansı bir xəsarət və ya xəsarət izi aşkar edilməyib. Komisyon məhkəmə-tibbi ekspertizası ilə həmçinin müəyyən edilmişdir ki, Penitensiar Xidmətinin Müalicə Müəssisəsinin həkimi tərəfindən 11 iyul 2012-ci il tarixdə İ.Əmiraslanovda aşkar edilmiş "sol qulaq pərdəsinin nöqtəvari quru perforasiyası (deşilməsi)" xroniki gedişli qeyri-travmatik mənşəli otitdən sonrakı prosesin nəticəsi olmaqla uşaq yaşlarında və 8 iyun 2012-ci il tarixdən əvvəlki dövrlərdə əmələ gəlmiş və qeyri-travmatik mənşəli olduğundan sağlamlığa zərər vurmanın dərəcəsinin təyinində nəzərə alınmır.

Hazırda qeyd edilən cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.

# İran xarici işlər nazirinin müavini gələn həftə gəlir

İran xarici işlər nazirinin müavini Seyid Abbas Arakçı gələn həftə Azərbaycana səfərə gələcək. APA-nın "Mehr" agentliyinə istinadən verdiyi məlumata görə, səfər zamanı iki ölkə arasındakı münasibətlərin mövcud durumu müzakirə ediləcək. Xatırladaq ki, səfər daha öncə iyulun 27-nə planlaşdırılsa da, hər iki ölkə rəsmi şəxslərinin gərgin iş qrafiki üzündən təxirə salınmışdı.

# "Soyqırım Memorial Kompleksi" sentyabrın 15-dək təhvil veriləcək

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Quba rayonunda inşa olunan "Soyqırım Memorial Kompleksi" bu il sentyabrın 15-dək təhvil veriləcək. Bu barədə APA-ya Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, Quba Memorial Xatirə Kompleksində həyata keçirilən tikinti işlərinin nəzarətçi-tədqiqatçısı Qəhrəman Ağayev məlumat verib. Onun sözlərinə görə, məzarlıqdakı sümüklərin şüşə altına qoyulması nəzərdə tutulur. Q. Ağayev deyib ki, hazırda məzarlıqdakı sümüklərin çürümə prosesi davam edir: "Sümüklər dərmanlanmalıdır, çünki onlarda eroziya prosesi sürətlənib. Geoloji seysmiklik sümüklərə güclü təsir edib".

Qeyd edək ki, Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də torpaq işləri görülərkən aşkar edilib. Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən aparılan tədqiqatlar nəticəsində məzarlıqda təxminən 400-dən çox insan cəsədinin qalıqları aşkar edilib. Qalıqları tapılanların 50-dən çoxu uşaq, 100-dən çoxu qadın, qalanı isə yaşlı kişidir. Ermənilər azərbaycanlılarla yanaşı, ləzgilər, yəhudilər, tatlar və digər etnik qrupların nümayəndələrini də qətlə yetirib. 514 kvadratmetr sahəsi olan məzarlığın 499 kvadratmetr ərazisində tədqiqatlar aparılıb. Həmin ərazidə içi insan sümükləri ilə dolu olan 2 quyu və 2 arx aşkarlanmışdı.

Prezidenti İlham Əliyev 2009-cu ildə Prezidentin Ehtiyat Fondundan Qubada "Soyqırım Memorial Kompleksi"nin yaradılması məqsədilə 1 milyon manat ayırıb.

# "Sürix protokollarının ratifikasiya olunmamasına sevinirəm"

"Ermənistan-Türkiyə münasibətlərinin normallaşması ilə bağlı imzalanmış Sürix protokolları əvvəldən erməni tərəfi üçün əlverişsiz idi". APA-nın xəbərinə görə, bunu "news.am"a müsahibəsində Ermənistan Milli Elmlər Akademiyası Tarix İnstitutunun direktoru Aşot Melkonyan deyib. O bildirib ki, protokolların imzalanmasından dərhal sonra Türkiyə tərəfi Qarabağ problemini də gündəmə gətirib və protokolların üçüncü tərəfi də maraqlandırdığını bəyan edib: "Münasibətlərin normallaşdırılmasının "işğal edilmiş", bizim üçün isə xilas edilmiş Dağlıq Qarabağdan erməni qüvvələrinin çıxarılması ilə əlaqələndirilməsi Türkiyə tərəfi üçün əlverişli idi. Məsələ erməni ictimaiyyətinin və diasporasının sərt müqaviməti ilə qarşılaşdığından çıxılmaz vəziyyət yarandı. Protokolların ratifikasiya olunmamasına mən bir tarixçi kimi sevinirəm".

# Milli Məclisdə vətəndaşların qəbulu dayandırılıb

Milli Məclisdə vətəndaşların qəbul edilməsi müvəqqəti olaraq dayandırılıb. APA-nın məlumatına görə, MM-in saytında bununla bağlı parlamentin Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin elanı yerləşdirilib. Elanda bu qərar Milli Məclisin Daxili Nizamnaməsinin 1-ci maddəsinə müvafiq olaraq MM-in iyul ayının 15-dən avqust ayının 30-dək tətilə buraxılması ilə izah olunub.

Qeyd edək ki, Milli Məclisin payız sessiyası oktyabrın 1-də başlayacaq.

# “Qarabağdan Anadoluya könül körpüsü” bölgələrimizdə

Millət vəkili Qənirə Paşayevanın təşəbbüsü ilə “Qarabağdan Anadoluya könül körpüsü” adlı proqram çərçivəsində Tərtər, Bərdə, Şamaxıda silsilə tədbirlər keçirib. Əvvəlcə Tərtərdə, ön cəbhədə qulluq edən əsgərlər üçün tədbir və konsert proqramı təşkil olunub. Qənirə Paşayevanın rəhbərlik etdiyi “Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu” İctimai Birliyinin və Umud Rəhimoğlunun rəhbərlik etdiyi Beynəlxalq Avrasiya Mətbuat Fondunun təşkilatçılığı ilə baş tutan tədbirdə çıxış edən Qənirə Paşayeva əsgərləri mübariz və vətənpərvər olmağa səsləyib. Daha sonra əsgərlərimiz üçün əməkdar artisti Tünzalə Ağayeva və Türkiyənin tanınmış sənətçisi Nursaç Doğanişıq mahnılar səsləndirib, əsgərlərlə birlikdə rəqs ediblər. Sonda xidmətində fərqlənən əsgərlərə hədiyyələr təqdim edilib.



Eyni adlı tədbir Bərdədə davam etdirilib. Məcburi köçkünlərin sıx məskunlaşdığı Bərdənin mərkəzi parkında keçirilən proqrama Bərdə, Ağdam və Kəlbəcərdən qaçqın və köçkün düşmüş insanlar, onların ailələri qatılıb. Tədbirdə çıxış edən Qənirə Paşayeva Bərdədə 50 mindən artıq məcburi köçkünün yaşadığını qeyd edərək, onların öz yurdlarına qayıdacağı günün uzaqda olmadığını deyib. Konsertdə Təbriz-Qarabağ aşıqları, Türkiyəli sənətçisi Nursaç Doğanıık, əməkdar artist Tünzalə Ağayeva ifalar səsləndiriblər.

Daha sonra qonaqlar Şamaxıya yollanaraq, burada “Tarixin yaddaşı: Şamaxı” sənədli filminin təqdimat mərasiminə qatılıblar. Rayondakı Mədəniyyət Mərkəzində “Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu” İctimai Birliyinin və Azərbaycan Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının təşkilatçılığı ilə 1918-ci il 18 mart tarixdə ermənilər tərəfindən dinc azərbaycanlılara qarşı Şamaxıda törədilən soyqırıma həsr olunan “Tarixin yaddaşı: Şamaxı” sənədli filminin təqdimat mərasimi keçirilib. İdeya müəllifi Qənirə Paşayevaya, baş məsləhətçisi isə millət vəkili Elxan Süleymanova məxsus olan filmin təqdimat mərasimində millət vəkilləri Fazil Mustafa, Qüdrət Həsənquliyev, ziyalılar və elm adamları iştirak edib.

Daha sonra millət vəkilləri Qüdrət Həsənquliyev, Fazil Mustafa, Avropa Qəzetçilər Birliyinin rəhbəri Adnan Fişəng və digər qonaqlar çıxış edərək ermənilər törətdiyi soyqırım haqqında öz fikirlərini səsləndiriblər. Tədbirdən sonra qonaqlar və Türkiyədən gələn nümayəndə heyəti Şamaxı şəhərində yerləşən “Şaxəndan” qəbristanlığını və türk şəhidinin abidəsini ziyarət edib.

unibank

“UNİBANK” Kommersiya Bankı”
Açıq Səhmdar Cəmiyyəti
İdarə Heyətinin qərarı ilə
təsdiq edilmişdir

“Unibank”-dan kredit götürün pul hədiyyəsi qazanın!”
TİRAJLI STİMULLAŞDIRICI LOTEREYANIN ŞƏRTLƏRİ

1 Ümumi müddəalar
1.1 Bu Şərtlər «Lotereya haqqında» Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 17 fevral 2012-cı il tarixli 02 saylı qərarı ilə təsdiq edilmiş “Stimullaşdırıcı lotereyaların təşkili və keçirilməsi Qaydaları”na uyğun olaraq hazırlanmışdır.
1.2 Şərtlər «Unibankdan kredit götürün pul hədiyyəsi qazanın!» tirajlı stimullaşdırıcı lotereyanın (bundan sonra «lotereya» adlandırılacaq) təşkili və keçirilməsi ilə bağlı məlumatları əks etdirən rəsmi sənəddir.
1.3 Şərtlər istifadə olunan əsas termin və anlayışlar «Lotereya haqqında» Azərbaycan Respublikası Qanununda və «Stimullaşdırıcı lotereyaların təşkili və keçirilməsi Qaydaları»nda nəzərdə tutulmuş mənada başa düşülür və tətbiq edilir.

2. Lotereyanın təşkili və keçirilməsi qaydaları
2.1 Lotereyanın təşkilatçısı hüquqi ünvanı AZ1022, Bakı şəhəri, Nəsimi rayonu, R.Behbudov küçəsi, 55, VÖEN 1300017201 olan və Azərbaycan Respublikası Mərkəzi Bankının 14 dekabr 2010-cu il tarixli 73 saylı lisenziyası (08 yanvar 2003-cü il tarixli lisenziyanın yeni forması) əsasında fəaliyyət göstərən «Unibank» Kommersiya Bankı” Açıq Səhmdar Cəmiyyətidir (bundan sonra «bank» adlandırılacaq).
2.2 Lotereya Banka yeni müştərilərin cəlb edilməsinin stimullaşdırılması məqsədi ilə keçirilir.
2.3 Lotereyanın başlama tarixi: 01.08.2012.
2.4 Lotereyanın son tarixi: 31.10.2012.
2.5 Lotereyanın oynanılma tarixləri:
- 1-ci tiraj - 05 Sentyabr 2012-ci il (01 Avqust-31 Avqust 2012 ci il tarixləri arası kredit götürən müştərilər);
- 2-ci tiraj - 05 Oktyabr 2012-ci il (01 Sentyabr-30 Sentyabr 2012 ci il tarixləri arası kredit götürən müştərilər);
- 3-cü tiraj - 07 Noyabr 2012-ci il (01 Oktyabr-31 Oktyabr 2012 ci il tarixləri arası kredit götürən müştərilər

2.6 Bankdan aşağıda tipləri göstərilən pərakəndə istehlak kreditlərindən hər hansı birini götürən müştərilər lotereyada iştirak edə bilərlər:
- AL CREDİT
- AL PC
- SCL
- MİKRO
- PC_NOGRACE

2.7 Bu şərtlərin 2.5 bəndində göstərilən müvafiq dövrlər üzrə bankdan kredit alan müştərilərə dair aşağıdakı məlumatlar Microsoft Excel proqramında hazırlanmış xüsusi siyahıya daxil edir:
- Kreditin verilmə tarixi;
- Adı, soyadı, atasının adı;
- Şəxsiyyəti təsdiq edən vəsiqənin seriyası və nömrəsi;
- Mobil telefon nömrəsi;
- Digər əlaqə telefon nömrəsi.

2.8 Lotereyada oynanılan toplam uduş məbləği 15 000 AZN pul məbləği olacaq. Bu şərtlərin 2.5 bəndində qeyd olunan hər tirajda 5 (beş) lotereya iştirakçısı qalib elan ediləcəkdir. Hər bir qalib 1000 (bir min) manat məbləğində uduş əldə edəcəkdir.
2.9 Qalib tərəfindən uduşun alınması hüququ üçüncü şəxslərə güzəşt edilməsinə yol verilmir.
2.10 Lotereya üzrə uduşlar, Bankın Baş İdarəsinin yerləşdiyi Bakı şəhəri, Nəsimi rayonu, R.Behbudov küçəsi, 55 ünvanında keçiriləcəkdir.
2.11 Qalib növbəti tirajlarda iştirak etməyəcəkdir. Lotereyada iştirak Bankın işçilərinə şamil edilmir.
2.12 Uduş fondunun oynanılması üçün xüsusi kompyuter proqramı (bundan sonra «proqram» adlandırılacaq) vasitəsilə elektron püşkatma qaydasında həyata keçirilir.
2.13 Hər bir lotereya iştirakçısının onu digər iştirakçılardan fərqləndirən bir eyniləşdirmə nömrəsi olacaqdır.
2.14 Lotereyanın uduş fondunun təyin edilmiş qaydalar əsasında oynanılmasına nəzarət məqsədi ilə tiraj komissiyası və komissiyasının sədri təyin ediləcəkdir. Tiraj komissiyasının sədri müəyyən edilmiş tarixdə, vaxtda və yerdə toplaşaraq uduş fondunun oynanılmağa başlandığını elan edir.
2.15 Lotereyanın hər bir tirajında uduş fondunun oynanılması üçün tiraj komissiyasının sədri və ya üzvlərindən biri proqramın müvafiq düyməsini basmaqla işə salır və bir müddətdən sonra dayandırır. Bu müddət ərzində işləyən proqram yüksək sürətlə qaydasız şəkildə cədvəldə olan eyniləşdirmə nömrələrini bir-bir seçir. Proqram dayandırılarkən kompyuterin monitorunda proqramın seçdiyi sonuncu eyniləşdirmə nömrəsi göstərilir. Həmin nömrə uduşlu sayılır. Uduşlu nömrə və həmin nömrənin aid olduğu lotereya iştirakçısının adı, soyadı və atasının adı kompyuterin monitorunda göstərilir və tiraj komissiyası tərəfindən bu barədə müvafiq qeydiyyat aparılır.
2.16 Bank uduşun oynanıldığı tarixdən 5 (beş) iş günündən gec olmayaraq Kütləvi İnformasiya Vasitələrində və 7 (yeddi) iş günündən gec olmayaraq qaliblərə, müvafiq uduşların ödənilməsi müddəti və qaydası barədə yazılı məlumat verir.
2.17 Qalib olan müştərilər məlumatlandırıldığı gündən etibarən 90 iş günü müddətinə Bankın baş idarəsinə müraciət edə bilərlər. Uduş, qalib olan müştərinin tələbi irəli sürüldüyü tarixdən etibarən 30 (otuz) iş gunundən gec olmayaraq ona verilir.
Uduş, qalibi olan müştəri uduşun ona ödənilməsi üçün şəxsiyyətini təsdiq edən sənədi təqdim etməlidir.

3. Yekün müddəalar
3.1 Lotereyanın təşkili və keçirilməsi ilə əlaqədar diqər münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.
3.2 Bu şərtlər lotereya iştirakçılarının tanış ola bilməsi üçün 525-ci qəzetdə, bankın rəsmi saytında ( www.unibank.az ) açıqlanır və lotereyanın təşkilatçısı və iştirakçıları üçün məcburi qüvvəyə malikdir.
3.3 Qaliblərin siyahısı və onlar haqqında məlumat hər tirajdan sonra www.unibank.az saytında və 525-ci qəzetdə yerləşdiriləcəkdir.
3.4 “Unibank” Kommersiya Bankının əlaqə telefonları; (012)-498-22-44; (012)-498-22-45.

## Ötən həftə 73 əcnəbi saxlanılıb

Azərbaycan Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti (DMX) tərəfindən həyata keçirilən tədbirlər ötən həftə ərzində də davam etdirilib. Xidmətdən verilən məlumata görə, iyulun 23-28-də Dövlət Miqrasiya Xidməti tərəfindən Bakı şəhərində qanunsuz miqrasiyaya qarşı müvafiq tədbirlər keçirilib. Keçirilən tədbirlər nəticəsində Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə zidd olaraq ölkə ərazisində etibarsız sənədlərlə yaşayan və fərdi icazə alınmadan əmək fəaliyyətinə cəlb edilən 73 əcnəbi aşkar edilərək barələrində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 339 və 340-1-ci maddələrinə uyğun müvafiq qərarlar qəbul edilib.

Qeyd edək ki, Dövlət Miqrasiya Xidməti tərəfindən qanunsuz miqrasiyanın aşkar edilərək qarşısının alınması istiqamətində paytaxtda və ölkənin regionlarında müvafiq tədbirlər davam etdirilir.

**BƏXTİYAR**

## Ağstafada "Öz biznes ideyanı yarat" və "Öz biznesinə başla" mövzularında treninq keçirilib

Ağstafa Rayon İcra Hakimiyyətinin dəstəyi, İqtisadi İnkişaf Nazirliyinin Bakı Biznes Tədris Mərkəzinin Qazax nümayəndəliyinin təşkilatçılığı ilə Ağstafada Beynəlxalq Əmək Təşkilatının “Öz biznesinə başla və təkmilləşdir” Proqramı çərçivəsində sahibkarlar üçün “Öz biznes ideyanı yarat” və “Öz biznesinə başla” mövzularında treninq keçirilib. Mərkəzdən verilən məlumata görə, tədbirdə Ağstafa Rayon İcra Hakimiyyətinin, Bakı Biznes Tədris Mərkəzinin Qazax nümayəndəliyinin əməkdaşları, eləcə də Ağstafa rayonunda fəaliyyət göstərən sahibkarlar iştirak edib.

Treninqdə iştirakçılara biznes ideyanın yaradılması, biznes-planların tərtib edilməsi, marketinq tədbirlərinin görülməsi, SWOT-təhlilin aparılması və bu sahədə beynəlxalq təcrübə, maliyyə planlarının hazırlanması və s. barədə ətraflı məlumat verilib.

Həmçinin, tədbir çərçivəsində İqtisadi İnkişaf Nazirliyinin və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) dəstəyi ilə yaradılmış www.b2b.az elektron ticarət portalı, portalın biznesin səmərəli təşkili və inkişafı üçün yaratdığı əlverişli imkanlar, portaldan istifadə qaydaları, elektron ticarətlə bağlı beynəlxalq təcrübə və s. barədə məlumat iştirakçıların diqqətinə çatdırılıb.

Treninqdə iştirakçılara Bakı Biznes Tədris Mərkəzi tərəfindən hazırlanmış metodiki vəsaitlər paylanıb, onları maraqlandıran suallar cavablandırılıb.

**BƏXTİYAR**

## Əlilliyi olan şəxslərlə bağlı hüquqi baza təkmilləşdirilir

Dünən Gəncə şəhərində əlilliyi olan şəxslərin cəmiyyətdə tam iştirakının dəstəklənməsi, onların həyat səviyyəsinin yaxşılaşdırılması və sosial hüquqlarının qorunması məqsədilə hazırlanmış layihə sənədlərinin aidiyyatı dövlət qurumları və ixtisaslaşmış vətəndaş cəmiyyəti institutları tərəfindən müzakirəsinə həsr olunmuş dəyirmi masa keçirilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, tədbirdə nazirliyin Əlillərin sosial müdafiəsi siyasəti şöbəsinin sektor müdiri İsgəndər Mustafayev giriş sözü ilə açaraq bildirib ki, ölkəmiz BMT-nin Baş Məclisi tərəfindən qəbul edilmiş “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyaya qoşulmaqla öz üzərinə mühüm öhdəliklər götürüb. Konvensiyanı ratifikasiya etmiş iştirakçı dövlətlər əlilliyi olan şəxslərin bir fərd kimi cəmiyyətdə maksimum səviyyədə müstəqillik əldə etməsi və onu saxlaması, tam fiziki, əqli, sosial və peşə bacarığına malik olması üçün hüquqi, iqtisadi, sosial şəraitin yaradılmasını təmin etməli, eyni zamanda əlilliyi olan insanların cəmiyyətə tam inteqrasiyası istiqamətində proqramların, strategiyaların hazırlanmasını və həyata keçirilməsini milli siyasətlərinin mühüm prioritetlərinə daxil etməlidirlər.

Qeyd olunub ki, ölkədə əlillərlə bağlı tədbirlərin effektiv həyata keçirilməsi, əlilliyi olan şəxslərin iqtisadi müstəqilliyinin artırılması, onların həyatın bütün sahələrinə tam inteqrasiyasına geniş şərait yaradılması məqsədilə “2012-2015-ci illərdə əlillərin sosial hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı””nın həyata keçirilməsi üçün Tədbirlər Planının, “Əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların fərdi reabilitasiya proqramının hazırlanması və onun həyata keçirilməsi Qaydaları”nın, həmçinin “Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud olan uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında” qanunun layihələri hazırlanıb. Əsas məqsəd isə əlilliyi olan şəxslərlə bağlı milli qanunvericilikdə ümumbəşəri dəyərlər əsasında təkmilləşdirmələr aparmaqdır.

Həmin layihə sənədlərində reabilitasiya tədbirlərinin səmərəsinin artırılması məqsədilə əlilliyi olan şəxslərin fərdi reabilitasiyasına xidmət edən qaydaların hazırlanması, 2012-2015-ci illərdə əlillərin sosial hüquqlarının müdafiəsinə dair tədbirlərin həyata keçirilməsi, o cümlədən onların sağlamlığının mühafizəsi və bərpası, təhsili və peşəyönümünün yaxşılaşdırılması, məşğulluğunun təmin edilməsi, informasiya və kommunikasiya texnologiyalarının istifadəsi üçün şəraitin yaradılması, mövcud sosial infrastruktur obyektlərinin əlillər üçün müyəssərliyi ilə bağlı zəruri işlərin görülməsi nəzərdə tutulub.

Dəyirmi masada qeyd olunan layihə sənədləri geniş müzakirə olunub. Tədbirdə həmçinin əlilliyi olan şəxslərin innovativ xidmət və vasitələrlə təmin olunması, tibbi-sosial reabilitasiya işinin təkmilləşdirilməsi, sosial infrastrukturun müyəssərliyi, əlilliyi olan şəxslərin əmək bazarına çıxışı və sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilə cəlb olunması məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb, təkliflər ir?li s?r?l?b.

Sonda tədbir iştirakçılarına Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi ilə hazırlanan, əlilliyin müəyyən olunması, habelə tibbi-sosial reabilitasiya və protez-ortopedik bərpa xidməti, reabilitasiya vasitələri ilə təmin edilmək üçün alternativ müraciət qaydalarını əks etdirən bukletlər paylanıb.

**BƏXTİYAR**

## Ankarada Azərbaycan Gecəsi keçirildi

İyulun 30-da Ankaranın Keçiörən Bələdiyyəsinin təşkil etdiyi 4-cü Beynəlxalq Ramazan Şənlikləri çərçivəsində Azərbaycan Gecəsi keçirilib. Azərbaycanın Türkiyədəki səfirliyindən APA-ya verilən xəbərə görə, tədbirdə səfir Faiq Bağırov başda olmaqla səfirliyin əməkdaşları, Keçiörən bələdiyyə başçısı Mustafa Ak, Sumqayıt Şəhər Bələdiyyəsinin nümayəndələri, Ankara ictimaiyyətinin təmsilçiləri, Ankaradakı azərbaycanlılar və KİV nümayəndələri iştirak ediblər.

Tədbir Azərbaycan Gecəsində iştirak etmək üçün Azərbaycandan gələn muğam qrupunun bir-birindən gözəl əsərlər səsləndirməsi ilə başlayıb. Sonra Keçiörən Bələdiyyəsinin Xalq Rəqsləri Qrupu Azərbaycan mahnıları sədaları altında rəqslər nümayiş etdirib. Keçiörən bələdiyyəsi başçısı Mustafa Ak və səfir Faiq Bağırov qısa çıxışdan sonra qarşılıqlı olaraq xatirə plaketləri təqdim ediblər.

Beynəlxalq Ramazan Şənliklərinin təşkil olunduğu ərazidə Azərbaycana xas olan tarixi, mədəni və incəsənət əsərlərinin nümayiş etdirildiyi Azərbaycan Evinin açılışı da olub. Açılışı F. Bağırov və M. Ak həyata keçirib.

# Zəki Qazioğlu: "Azərbaycan nə qədər güclənərsə, Şimali Kipr Türk Cümhuriyyəti də o qədər rahat və güvənlikdə olar"

**Azərbaycan Jurnalist Qadınlar Assosiasiyasının "Qadın klubu"nun budəfəki qonağı Şimali Kipr Türk Respublikasının Azərbaycan nümayəndəliyinin rəhbəri Zəki Qazioğludur.**



***—Zəki bəy, Şimali Kipr Türk Respublikası ilə Azərbaycan arasındakı əlaqələr hansı vəziyyətdədir?***

— 20 yanvar faciəsini dünyada ilk qınayanlardan biri Şimali Kipr Türk Respublikasının Cümhuriyyət Məclisidir. Daha sonra Xocalıdakı hadisələrə qarşı öz mövqeyimizi ortaya qoyduq. Şimali Kiprin Cümhuriyyət Məclisi sovetlər dövründə Azərbaycanın başına gətirilənlərə qarşı çıxan və Azərbaycanı hər zaman dəstəkləyən ilk addımı atıb. Bundan sonra Xocalıda siyasi və müharibə vəziyyətində hər zaman Azərbaycanın yanında olan, eyni acıları daha öncə biz də yaşadığımız üçün bunu ən yaxşı anlayan və daim azərbaycanlı qardaşlarımızın yanında olan bir mövqe sərgiləmişik. Həm rəsmi, həm ictimai, o cümlədən istənilən sahədə əlaqələrimiz mövcud və ildən-ilə də genişlənir. Azərbaycandakı fəaliyyətimin ilk illərində 2006-2007-ci ildə ölkələrimiz arasında 17 qarşılıqlı rəsmi görüşlər keçirilib. Demək olar ki, hər həftə iki dövlət arasında qarşılıqlı görüşlərimiz olur. Bu, kənardan heç də özünü büruzə vermir. Hətta bizim ölkədə belə Azərbaycanla bu qədər sıx əlaqələrimizin olmasının fərqində deyillər. Halbuki Türkiyədən sonra Şimali Kiprin ən çox təmasda olduğu ölkə Azərbaycandır. Bizim burda həyata keçirmək istədiyimiz işlərin mahiyyəti ondan ibarətdir ki, ölkələrimizin vətəndaşları bir-birləri ilə sıx əlaqəyə girsin. Biz doğru insanları doğru yerlərə istiqamətləndirib, onların biri-birlərini tapmasını, tanımasını və işbirliyi qurmasını təbliğ edirik. Çünki dövlətin bu işləri görməsi bir yerə qədərdir. Dövlətin işi çox olduğundan ayrı-ayrı sahələr üzrə işlər çox zəif gedir. Hesab edirəm ki, özəl sektor bu işləri öz üzərinə götürsə, o zaman işlər də daha da sürətlənər. Bunun üçün biz üzərimizə düşən işləri görürük, amma özəl sektorun da çalışması, onların da daha çox iş görmələri və daha çox tələbkarlıqla bizdən istəmələri lazımdır ki, biz də onlara lazımı yolları göstərək.

***— İki dövlət arasında hansı sahələrdə əlaqələrin inkişaf etdiyi daha çox özünü göstərir ?***

— Qarşılıqlı əməkdaşlıq sahəsində öz bəhrəsini verən daha çox təhsil sahəsidir. Turizm sahəsi də pis deyil. Keçən il bunun bir təcrübəsi də reallaşdı. "Çarter relslər"i açıldı və iki ayda burdan Kiprə 4 min turist getdi. Demək ki, bu sahədə də yaxşı bir potensial var. Bayaq dediyim kimi, bunu dövlət etməməməlidir, edə də bilməz. Bu, yalnız xüsusi şirkətlərin görə biləcəyi işdir. Biz- ada insanlarının mentaliteti, düşüncəsi böyük ölkələrə nisbətən bir az fərqlidir. Bizim çoxa ehtiyacımız yoxdur, əksinə az olsun, bizim olsun. Amma bu düşüncə tərzi indiki dünyada doğru deyil. İndi hamı bir-birini əzə-əzə bir yerlərə gəlir. Ona görə də bizim iş adamlarının xaricə çıxması çox çətindir. Amma Azərbaycanda bu belə deyil. Burdan ora getməyin əsl vaxtıdır və Azərbaycan iş adamlarını həmişə olduğu kimi bu gün də Şimali Kiprə dəvət edirəm. Gedib görsünlər. Ən çox da orda turizm üçün çox zəngin bir sərmayə qoymaq imkanları var və bizim dövlət də bunu təşviq edir. Bunun üçün bəzi güzəştlər də var. Ona görə deyirəm ki, hazırda Kiprə getməyin tam zamanıdır. Çünki Kipr türkləri üzərində olan embarqolar davamlı deyil. Əlbəttə ki, bütün bunlar tezliklə aradan götürüləcək. Çünki orda günahsız insanlar insan haqlarından məhrum ediliblər. Bunu hələ ki, Avropa görməməyə çalışır, amma hər bir vicdanı olan insan günahsız insanların orda təzyiqlər altında saxlanıldığını bilir. Bu təzyiqlər tezliklə ortadan qalxacaq və Avropadan Şimalı Kiprə çox böyük sərmayələr gələcək. Əlbəttə ki, Avropadan gələn şirkətlər bankların pullarıyla, kreditləriylə çox güclü şəkildə investisiya qoymağa çalışırlar. Bax, o zaman azərbaycanlı iş adamları gələrsə, onlarla yarışma vəziyyətində qalacaq və qalib gəlmək şansı çox az olacaq. Halbuki, indiki vaxtda bu rəqabət yoxdur və ora investisiya qoymağın əsl vaxtıdır.

***—Sizin də, bizim də bir problemimiz var. Bizdə Qarabağ münaqişəsi, sizdə Kipr məsələsi mövcuddur. Vaxt getdikcə isə bu problemlərin çözülməsi çətinləşir. Bilmək istərdik ki, Kipr məsələsinin həlli getdikcə çətinləşir, yoxsa yaxınlaşır?***

— Problemin vaxtı nə qədər uzanarsa, həlli də bir o qədər çətinləşir. Bir işin içinə nə qədər adam qarışarsa, onların mənafeələri toqquşmağa başlayır və iş getdikcə uzanır. Bu baxımdan Qarabağ məsələsinə nə qədər adam qarışsa, problemin həlli üçün çalışmalarına baxmayaraq, bu münaqişənin həlli də uzanacaq. Burda Azərbaycanın bir şansı var ki, o torpaqlar sizin olduğu üçün onları geri qaytarmaq da sizin hüquqi haqqınızdır. Azərbaycanın, türk dünyasının getdikcə güclənməsi Qarabağın tezliklə azad olunması şansını artırır. Kipr məsələsində isə daha çox qarışıqlıq mövcuddur. Asan məsələ olsaydı, əlbəttə ki, bu günə kimi həll olunmuş olardı. Bu işin içində çox ölkənin mənfəətləri var. Bu baxımdan nə qədər haqlı olsaq belə, bu haqqımızı bizə vermək istəmirlər. Ecevitin zamanındakı cəsur addımlarla haqqımızın bir qismini aldıq və varlığımızı davam etdirə bilirik. Türkiyə o vaxt 5-10 gün belə gec müdaxilə etsəydi, bu məsələ dönüşü olmayan sonluqla tamamlanmış olacaqdı. Bu isə bir çoxlarının mənfəətinə yarayacaqdı. Dünyanın hər yerində olduğu kimi Kiprdə də iqtisadi çətinliklər var. Amma əhali sayının az olması və düzgün tədbirlər nəticəsində, eyni zamanda, Türkiyənin köməyi ilə iqtisadi gücü artırmaq mümkündür. Türkiyə nə qədər güclü olarsa, Azərbaycan nə qədər güclənərsə, Kipr də o qədər rahat və güvənlikdə olar.

***—Tələbə Qəbulu üzrə Dövlət Komissiyası imtahandan kənar xarici universitetlərə qəbulla bağlı xəbərdarlıq edib. Eyni zamanda, sizdəki tibb təhsili müddəti ilə Azərbaycandakı tibb təhsili müddətində fərqlər var. Bunun da problemlər yaratması ilə bağlı söz-söhbətlər oldu.***

— Mən Azərbaycana gəldiyim zaman Kiprdə 65 azərbaycanlı tələbə var idi. Bir il sonra bu say 97-yə çatdı. Sonra isə 117, 127, 412 oldu. Bu il isə 950 oldu. Oktyabrda olacaq qəbulda isə bu sayın 1500-ə çatacağını hesab edirəm. Bu, böyük bir rəqəmdir. Türkiyədə oxuyan azərbaycanlı tələbələrin sayı 3500 nəfərdirsə, Kiprdə olan 1500 çox böyük rəqəmdir. Kiprdə oxuyan xarici tələbələr içərisində ilk sırada Nigeriya və İran qərarlaşır. Azərbaycan 6-cı sırada idi, amma indi 3-cü sıradadır. Güman edirəm ki, növbəti illərdə Azərbaycan bu istiqamətdə birinci yerə keçəcək. Bizdəki universitetlərin xaricdən gələn tələbə sayı 60 min olmalıdır. İndi 45 min tələbədir. Qarşımızdakı hədəf bu sayı lazım olan səviyyəyə yüksəltməkdir. Bu 60 min tələbənin 5 mini mütləq Azərbaycandan olmalıdır. Buna görə də Kiprdə universitetlərin sayı artmaqdadır. Hazırda bizdə 5 universitet var ki, onlardan 2-si dövlət, 3-ü isə özəldir. Kiprdəki yeganə tibb fakültəsi də Yaxın Doğu Universitetindədir. Tibb fakültəsinin olması üçün xəstəxana olmalıydı. Belə bir xəstəxana isə Kiprin şərtləri və imkanları üçün həddindən çox idi. Amma çox müasir bir xəstəxana tikildi. Bununla da tibb fakültəsi öz işini özü qurur. Əsas məqsəd xəstəxananı yetərincə deposu olmayan Kipr şərtləri çərçivəsində qoruyub saxlamaqdır. Böyük sərmayə qoyulan bu xəstəxanaya Türkiyədəki ən yaxşı həkimlər cəlb olundu. Onlar da həm dərs verirlər, həm də xalqa xidmət edirlər. Müasir texnologiyalı bir təhsil ocağıdır. Azərbaycandan da orda tələbələr oxuyur, xüsusən də diş həkimliyi üzrə oxuyanların sayı daha çoxdur. Həm də qeyd edim ki, Kiprdəki bütün universitetlər Ali Təhsil Qurumu adlı bir qurumdan keçir ki, burada verilən diplomları o tanımazsa, o diplomun heç bir qiyməti olmaz. Qurumun verdiyi diplomlar Türkiyədə qəbul olunduğu kimi, dünyanın digər ölkələrində də qəbul olunmasına heç bir mane yoxdur. Hətta bizdə bakalavr pilləsini bitirdikdən sonra növbəti pillələri başqa ölkələrdə oxuyanlar da var ki, bu da həmin diplomların tanınması deməkdir.

***—Bəs , azərbaycanlı tələbələrə güzəştlər varmı?***

— Azərbaycanlı tələbələrə 50 faiz güzəşt var. Kiprli tələbə nə qədər təhsil haqqı ödəyirsə, azərbaycanlı tələbələr də eyni qiymətlə təhsil alırlar. Amma Türkiyədən gələn tələbələr bunun iki qatını ödəyirlər. Bəzi universitetlər bir illik təhsil haqqı, gündə üç dəfə yemək və yataqxana xərclərindən ibarət paket üsulu tətbiq edirlər. Bu isə Azərbaycan manatı ilə 5 min manat civarında olur.

***—Kipr universitetlərinə qəbul necə aparılır?***

— Qəbul üçün TQDK-nın qiymətləndirməsi ilə yüksək nəticə göstərənlər arasından da müraciət edənlər var. Bunun faydası ondan ibarətdir ki, universitetlər TQDK-nın imtahanında yüksək bal yığanlara 550-700 civarında təqaüdlər verirlər. Amma 400, 200 balla da, eyni zamanda attestatla da qəbul mümkündür. Onu da deyim ki, bu hələ tam qəbul demək deyil. Bizdə dərslər əsasən ingiliscə keçirildiyi üçün qəbul olunan tələbələrə əvvəlcə ingilis dili kursları keçirilir. Amma kurslara keçdikdən sonra oxumayan heç bir kəsə diplomlar verilmir. Bir-iki il oxumaq fürsəti verilir və bu zaman kəsiyində tələbə özünü doğrultmasa, onunla yollarımızı ayırmalı oluruq.

***—Azərbaycandan başqa hansı ölkələrdə diplomatik fəaliyyət göstərmisiniz?***

— 1987-ci ildən 1991-ci ilə qədər Belçikada — Brüssel nümayəndəliyində birinci katib olaraq çalışmışam, sonra qısa bir vaxt ərzində İstanbulda baş konsul oldum, 1997-ci ildən 2003-cü ilə qədər İsveçrədə — Cenevrə nümayəndəliyində çalışmışam. Sonra Xarici İşlər Nazirliyinə qayıtdım və üç il nazirlikdə işlədim. Nəhayət, son altı ilimi də Azərbaycanda işləməklə keçirmişəm. Əslində isə mən Kipri çox sevdiyimdən, xaricə getməsəydim də olardı, sadəcə elə bir peşə seçmişəm ki, bütün həyatımı xaricdə keçmək məcburiyyətində qaldı. Amma yavaş —yavaş sonuna gəlirik. Bundan sonra isə təqaüdə gedəcəyəm.

***— Sizi Azərbaycanda əvəz edəcək insanın kim olacağını bilirsinizmi?***

— Məndən sonra Azərbaycanda məni əvəz etmək üçün Sadəddin Topuqçu gələcək. O da mənə çox yaxın insandır. Azərbaycandan getsəm də fikrim hər zaman burda olacaq.

# Hadi Rəcəbli: "Ermənistan getdikcə dərinləşən demoqrafik bataqlıqdan qurtula bilməyəcək"



"Dünyanın müxtəlif ölkələri, xüsusilə Avropa dövlətləri belə metodlara artıq əl atıblar. Xüsusilə, bu metodlar Almaniyada geniş istifadə olunmaqdadır. Lakin bütün bu tədbirlər və həyata keçirilən metodlar demək olar ki, demoqrafik vəziyyətin nizamlanması məsələsində hər hansı bir rol oynamır". Bu barədə Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli Ermənistan hökumətinin demoqrafiq problemlərdən qurtulmaq üçün Suriyada və Livanda yaşayan ermənilərin bu ölkə vətəndaşlığını ala bilmələri üçün prosedurların sadələşdirilməsi barədə qərarına münasibət bildirərkən deyib. Millət vəkili deyib ki, miqrasiya bu və ya digər ölkədə yaranmış demoqrafik problemin yoluna qoyulması ilə əlaqədar ümidləri doğrultmur: "Daha doğrusu, Ermənistan bununla ölkədə getdikcə dərinləşən demoqrafik bataqlıqdan qurtula bilməyəcək. Buna görə də, Ermənistana hətta Suriyadan və Livandan müəyyən sayda ermənilər axışıb gəlsə belə, bu onu demoqrafik böhrandan xilas edə bilməyəcək. Bundan əlavə, Suriyadan və Livandan Ermənistana köçməyə ehtimal ki, razılıq verəcək erməni kontingentinin tərkibi də şübhə doğurur. Güman ki, Suriyada yaşayan ermənilər Ermənistana orada başlayan müharibə səbəbindən köçməyə başlayacaqlar. Lakin axı Ermənistanın özündə vəziyyət Suriyadan da pisdir. Buna görə də, mən Suriyada və Livanda, yaxud digər dünya ölkələrində yaşayan ermənilərin Ermənistana daimi yaşamaq üçün gələcəklərinə şübhə edirəm". Ermənistan hakimiyyətinin Suriyadan və Livandan qaçqın düşən ermənilərin Azərbaycanın işğal altında olan ərazilərində yerləşdirmək ehtimalının nə dərəcədə olmasına gəlincə, H.Rəcəbli deyib ki, Ermənistan hakimiyyəti Suriya və Livandan gələn erməniləri Azərbaycanın işğal olunmuş torpaqlarına yerləşdirməyə çalışır. Lakin bu demoqrafik böhranı aradan qaldırmaq üçün heç bir səmərə verməyəcək: "Çünki hətta, hazırda Suriya və Livanda yaşayan ermənilərdən kimlərsə daimi yaşamaq üçün Ermənistana gələrsə belə, onlar Dağlıq Qarabağda məskunlaşmağa razı olmazlar. Erməni qaçqınlar əmindirlər ki, Qarabağ onların torpağı deyil və onlar bir qeyri-sabit yeri digərinə dəyişmək istəməzlər". Demoqrafik böhranın artmasının gələcəkdə region üçün hansı problemlər yarada bilməsinə də toxunan komitə sədri deyib ki, region, ümumilikdə isə dünya millətləri və xalqlarının tam inteqrasiyası üçün dil, din, mentalitet və mədəniyyət fərqi maneçilik törədir: "Lakin vəziyyət belədir ki, dünya tam inteqrasiyaya gedir və bu proses vaxtaşırı olaraq sürətlənməkdədir. Dünyanın bütün ölkələri bu və ya digər formada bir-biri ilə əlaqəli olmağa başlayırlar. Vahid Avropa məkanını buna misal olaraq göstərmək olar. Əhalinin artımı ilə bağlı problemləri region ölkələrinin inteqrasiyası yolu ilə yoluna qoymaq olar. Ermənistan digər ölkələrin torpaqlarını işğal etmək əvəzinə onlarla birgə inteqrasiya etməlidir". Azərbaycanda demoqrafiya məsələlərinə toxunan H.Rəcəbli deyib ki, ölkədə demoqrafiya ilə bağlı problemlərin hər hansı bir əlamətləri müşahidə olunmur: "Amma əhalinin artması yalnız ölkənin hərtərəfli inkişafı üçün faydalı ola bilər. Çünki Azərbaycan iqtisadi baxımdan inkişaf etməkdə olan bir ölkədir və öz əhalisinin iki yaxud üçqat artım səviyyəsində də qida ilə təmin etmək iqtidarındadır. Xüsusən də, yaxın gələcəkdə stabil demoqrafik vəziyyət bu və ya digər ölkənin inkişafını şərtləndirən amilə çevriləcək. Ona görə, Azərbaycan əhalisi birmənalı olaraq artmalıdır".

**PƏRVANƏ**

# Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası məlumat yayıb

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından qəzetimizə verilən məlumata görə, 2012-ci il iyulun 26-da Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüş Azərbaycan Ordusunun əsgəri, 1992-ci il təvəllüdlü Fərəcov Firuz Mirzə oğlu ilə bağlı məlumat əldə edildikdən dərhal sonra Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası zəruri tədbirlərin görülməsinə başlamış, aidiyyəti beynəlxalq təşkilatlara rəsmi müraciətlər ünvanlayıb. Beynəlxalq Qızıl Xaç Komitəsindən daxil olmuş məlumata görə, bu qurumun Ermənistandakı nümayəndəliyi məsələ ilə bağlı müvafiq işləri həyata keçirir. Məlumatda bildirilir: "Ancaq bu cür hadisələrin baş verdiyi məqamlarda həmişə olduğu kimi, bir çox kütləvi informasiya vasitələri belə demək mümkündürsə, hərəkətə keçərək yoxlanılmamış və əsir götürülmüş əsgərin təhlükəsizliyinə zərər verə biləcək məlumatların yayılmasına start vermişlər. Daha çox təəssüf doğuran cəhət isə ondan ibarətdir ki, yerli KİV-lər F.Fərəcovun ailəsinə məxsus şəxsi məlumatları, onların özləri ilə razılaşdırmadan, heç bir əlavə yoxlama və dəqiqləşdirmə aparmadan yaymışlar. Bəzi KİV-lər isə daha da irəli gedərək əsir götürülmüş əsgərin atasının hərbçi olduğunu, hətta daşıdığı hərbi rütbəni və xidmət etdiyi qoşun növünü belə diqqətə çatdırmışlar. Bu cür KİV-lər bu tip məlumatları yayarkən görəsən düşmənə gərəkli məlumatları verdiklərinin və bu məlumatın əsir götürülmüş əsgərin və onun ailəsinin həyatı üçün hansı nəticələri verəcəyinin fərqindədirlərmi? Digər bir KİV isə guya F.Fərəcovun ailə üzvlərini evdə tapmadıqlarını və buna görə də qonşulardan müsahibə aldıqlarını bildirmiş və "qonşuların" verdiyi ifadələri məlumat qismində yaymışlar. Ailə ilə söhbət zamanı onlar heç bir jurnalistlə görüşmədiklərini və qəzetdə adı çəkilən qonşularının olmadığını bildirmişlər". Məlumatda qeyd olunur ki, bu cür məlumatların hər cəhdlə ictimaiyyətə açıqlanması hər şeydən öncə insan hüquqlarının və beynəlxalq humanitar hüquq normalarının pozulmasıdır: "Dövlət Komissiyası bir daha bəyan edir ki, əsir-girovların, o cümlədən Firuz Fərəcovun azad olunması istiqamətində fəaliyyət göstərən yeganə qurum kimi zəruri tədbirləri görür və bu barədə məqbul sayılan vaxtda və həcmdə məlumatlar yayır.

Göstərilənləri nəzərə alaraq, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası kütləvi informasiya vasitələrinə bu problemlə bağlı məlumatları yayarkən ümumi maraqlardan çıxış etməyi, yoxlanılmamış və əsası olmayan, xüsusən də şəxsə və ailəyə məxsus informasiyaların işıq üzü görməsinə yol verməməyi tövsiyə edir".

**S.MÜRVƏTQIZI**

# Daxili İşlər Nazirliyində geniş kollegiya iclası keçirilib

Daxili İşlər Nazirliyində (DIN) respublika daxili işlər orqanlarının cari ilin birinci yarısında cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş kollegiya iclası keçirilib. Nazirliyin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, iclası giriş sözü ilə açan daxili işlər naziri, general-polkovnik Ramil Usubov bildirib ki, respublikada cinayətlərin qarşısının alınması və açılması, ictimai asayişin təmini sahəsində əvvəlki illərin müsbət nəticələri inkişaf etdirilib, insan hüquq və azadlıqlarının qorunması işi daha da yaxşılaşıb, kriminogen durum nəzarətdə saxlanılıb. Nazir əmin olduğunu bildirib ki, cari ili yüksək göstəricilərlə başa vurmaq üçün şəxsi heyət cinayətkarlığa qarşı mübarizə və ictimai asayişin təmini sahəsində Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qarşıya qoyulan mühüm vəzifələri, dövlət başçısının ölkədə hüquq qaydasının və qanunçuluğun möhkəmləndirilməsi, əməliyyat-xidməti fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı tələb və tapşırıqlarını tam həcmdə yerinə yetirəcək, sabitliyin, əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında qüvvə və bacarığını əsirgəməyəcək, əldə olunmuş müsbət nəticələri daha inkişaf etdirəcəkdir: "Bunun üçün əməkdaşların və hərbi qulluqçuların kifayət qədər peşəkar hazırlığı, təcrübəsi, bilik və bacarığı, ən əsası, ölkə rəhbərliyinin daxili işlər orqanlarının maddi-texniki təminatının, sosial və məişət şəraitinin daha da yaxşılaşdırılmasına yönəlmiş iradəsi, vətəndaşlara diqqət və qayğıdan irəli gələn hərtərəfli dəstəyi var".

Kollegiyada daxili işlər nazirinin müavini, polis general-leytenantı Vilayət Eyvazov hesabat məruzəsi ilə çıxış edib.

# İtler Turan: "Qondarma erməni soyqırımı qanunu qüvvəyə minsə, bu, Türkiyə–Fransa münasibətlərinin daha da pisləşməsi ilə nəticələnəcək"

"Məlum olduğu kimi, qondarma "erməni soyqırımı"nın inkar edilməsinin cəzalandırılması haqqında qanun Nikola Sarkozinin Fransada prezidentliyinin son aylarında Senat tərəfindən qəbul edilmişdi. Bundan sonra Fransanın Konstitusiya Məhkəməsi bu qanunu Konstitusiyaya zidd hesab edən qərar qəbul etdi. İndi Fransa Senatı bu qanunu qəbul etmək üçün elə bir formul axtarıb tapmalıdır ki, ölkə Konstitusiyasının maddələri ilə ziddiyyət təşkil etməsin". Bu barədə İstanbul Universitetinin professoru İlter Turan Fransanın yeni prezidenti Fransua Ollandın Senata qondarma "erməni soyqırımı" ilə bağlı yeni qanun layihəsini təqdim edəcəyinə dair fikirlərinə münasibət bildirərkən deyib. O deyib ki, Türkiyə və Fransanın Xarici İşlər Nazirlikləri rəhbərləri bu yaxında baş tutan görüşdə iki ölkə arasındakı münasibətlərdə yeni səhifənin açılmasının vacibliyini bəyan etdilər. "Lakin Fransua Ollandın sözügedən bəyanatı Türkiyə-Fransa münasibətlərində yeni səhifənin açılması imkanlarını heçə endirir. Buna görə də, Fransua Ollandın adıçəkilən bəyanatının Fransanın Azərbaycan və Türkiyə ilə münasibətlərini pisləşdirəcəyini nəzərə alsaq, bu bəyanat özlüyündə təəccüb doğurur".

İ.Turan güman edir ki, F.Ollandın qondarma "erməni soyqırımı"nın inkar edilməsinin cəzalandırılmasına dair qanun layihəsini Senata təqdim edəcəyinə dair səsləndirdiyi bəyanat onun seçkidən əvvəlki vədləri ilə əlaqədardır: "Əgər bu qanun Fransada qüvvəyə minərsə, bu, Türkiyə-Fransa münasibətlərinin daha da pisləşməsi ilə nəticələnəcək". Onun fikrincə, Ollandın Fransada sözügedən qanunun qəbul edilməsinə nail olmaq cəhdi həm onun seçkidən əvvəl verdiyi vədlərlə, həm də erməni lobbisi tərəfindən ona edilən təzyiqlərlə bağlıdır: "Əslində, Ollandın niyyətinin kökündə bu səbəblərin hər ikisi durur. Erməni lobbisi Fransada prezident seçkisindən əvvəl Olland seçiləcəyi təqdirdə qondarma "erməni soyqırımı"nın inkarının cəzalandırılmasına dair qanunu Senata təqdim etməsinə nail olublar. İndi, erməni lobbisi prezidentə onun seçkiqabağı verdiyi vədini yerinə yetirməsi üçün təzyiq göstərirlər. Bununla yanaşı, bu məsələdə həmçinin digər amilləri də nəzərə almaq lazımdır. Məsələn, bildiyiniz kimi, Avropa böhran vəziyyətindədir və bu şəraitdə təbliğat mahiyyətli və rezonans doğuracaq qərarlar qəbul etmək tələb olunur. Eyni zamanda, bu Fransa hökumətinin Türkiyənin Avropa İttifaqına qəbul edilməsini istəməməyin fonunda edilir. Bununla yanaşı, Fransa bunu açıq şəkildə bəyan etmək üçün erməni məsələsini gündəliyə daxil edəcək, bununla da Türkiyə-Fransa münasibətlərini qəsdən pisləşdirəcək". Fransanın "erməni soyqırımı"nın inkarının cəzalandırılmasına nail olmaq niyyətinin qarşısını almaq üçün Türkiyə hansı xarici siyasi aksiyalar həyata keçirməli olduğuna gəlincə, o deyib ki, Türkiyə əvvəl olduğu kimi, buna emosional şəkildə cavab verməməlidir. Eyni zamanda, cavab sərt və qəti olmalıdır. Türkiyə Fransa ilə iqtisadi münasibətləri, həmçinin müdafiə sahəsində əməkdaşlığı dondurmalıdır. Bundan əlavə, Fransa Türkiyədə reallaşdırılan iri layihələrdən kənarlaşdırıla bilər. Bunlarla yanaşı, Türkiyə Fransaya səsləndirilməsi Paris üçün arzuolunmaz olan keçmişdə etdiklərini ona xatırlatmalıdır. O deyib ki, bu məsələ tamamilə Azərbaycan-Ermənistan, Türkiyə-Ermənistan münasibətlərinə aiddir və Fransa buna qarışmamalıdır: "Müvafiq olaraq, əgər Fransa bu məsələlərə müdaxilə edərsə, o, Azərbaycan-erməni və türk-erməni münasibətlərinin normallaşdırılmasını çətinləşdirəcək".

**PƏRVANƏ**

# Vilayət Eyvazov: "İnsan alveri ilə məşğul olan 4 cinayətkar qrup zərərsizləşdirilib"



Azərbaycanda insan alveri ilə mübarizəyə dair statistika açıqlanıb. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən APA-ya verilən məlumata görə, daxili işlər nazirinin müavini, polis general-leytenantı Vilayət Eyvazov nazirlikdə dünən keçirilən kollegiya iclasında bildirib ki, İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı əsasında həyata keçirilən tədbirlərlə 65 (+2) fakt aşkarlanıb, 10 nəfərdən ibarət 4 cinayətkar qrup zərərsizləşdirilib. Bu növ hüquqazidd əməllərin qurbanı olan 35 şəxs müəyyən olunaraq cəmiyyətə reinteqrasiyası təmin edilib.

O, qeyd edib ki, dövlətin iqtisadi təhlükəsizliyinin qorunması sahəsində həyata keçirilən əməliyyat tədbirləri ilə 7 saxta pul hazırlama və ya satma cinayəti aşkarlanıb və qeyri-leqal dövriyyədən ümumi məbləği 22 min manat təşkil edən 2167 ədəd əsginas çıxarılıb.

V. Eyvazov həmçinin bildirib ki, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində texniki sistemlərin tətbiqinin və inzibati tənbehlərin sərtləşdirilməsinin hadisələrin qarşısının alınmasına müsbət təsiri olub. Qəzaların sayında qeydə alınmış 6,3 faiz azalma əsasən sürət həddinin aşılması və nəqliyyat vasitəsinin sərxoş vəziyyətdə idarə olunması kimi xətaların profilaktikasının gücləndirilməsindən irəli gəlib. Ümumilikdə yol hərəkətinə nəzarət prosesində 10,2 faiz çox və ya 450 minə yaxın qayda pozuntusu müəyyən edilib, 1013 şəxsin sürücülük hüququ müxtəlif müddətlərə məhdudlaşdırılıb. Avtoxuliqanlıq etdiyinə görə 299 nəfər, şüşələrinə pərdə və plyonka çəkmiş 4530 sürücü barəsində qanunauyğun ölçülər götürülüb.

“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə

# Plüralizm və müasir media: reallıqlara və perspektivlərə baxış

## PROFESSOR CAHANGİR MƏMMƏDLİ İLƏ SÖHBƏT

*Sevinc MÜRVƏTQIZI*

*(Əvvəli 28 iyul sayımızda)*











***— Belə aydın olur ki, plüralizm hətta tam demokratikləşmiş cəmiyyətlərdə də natamam haldadır...***

— Plüralizmlə bağlı bütün dünyada narahatlıq var. Rusiya qəzetlərindən bir misal gətirmək istəyirəm. Xüsusilə “Komsomolskaya pravda”nı izləyirəm. İndi Rusiya da demokratik ölkə imicinə gəlib çıxıb də guya. “Komsomolskaya pravda” az qala bütöv bir nömrəni Türkiyənin turizm şirkətlərinin əleyhinə yönəldib. Nədi-nədi, Rusiya vətəndaşları böyük bir axınla Türkiyəyə turist kimi gedirlər. Bunun qarşısını almaq üçün ayrı-ayrı tədbirlər görmək olar. Vətəndaşına o qədər pul ver ki, Maltaya getsin və sair. Bunu edə bilmirsən, amma Türkiyənin əleyhinə sovet ideoloji sistemindəki kimi qara piar aparırsan, anti-təbliğat kampaniyası qurursan. Bu misalla demək istəyirəm ki belə faktlar dünyanın hər yerində, ən tanınmış nəşrlərdə belə var. Mən bunu rus mətbuatından da izləyirəm, ingilisdilli qəzetləri kalka yolu ilə tərcümə edib bu nəticəyə gəlmişəm. Dünyanın ən nüfuzlu, ictimai marağı üstün tutan telekanallarından biri — Azərbaycan da öz jurnalistika məktəbində ona söykənmək istəyir — BBC-nin Liviya hadisələri ilə bağlı verdiyi informasiyaların 20-30 faizi səhv olurdu, özü də bunu qəsdən edirdilər. Belə faktlarla qarşılaşandan sonra düşünürəm ki, əslində elə bizim öz klassik mətbuatımıza — Üzeyir bəyə, Mirzə Cəlilə, Əli bəy Hüseynzadəyə söykənmək lazımdır. Bunlar vətənə xidmətləri, informasiyaya dəqiq münasibətləri ilə üstün bildiklərimizin hamısının fövqündədirlər. Bizim hamımıza, elə dünyaya da örnək ola bilərlər.

***— Sizə görə fikir və söz azadlığı məfhumu nədir?***

—Mənim üçün fikir və söz azadlığı ilk növbədə qanundan başlayır. Azərbaycanda fikir və söz azadlığı ilə bağlı qanunvericilik tam mənası ilə formalaşıb. Ölkə konstitusiyası Azərbaycan vətəndaşına azad şəkildə informasiya almaq, toplamaq və yaymaq hüququ verir. Almaq və toplamaq vətəndaşın işidir, yaymaq isə jurnalistin. Bunlar konstitusiyada təsdiq və təsbit edilir. Bizdə qanun bazası tam formalaşıb. Milli maraqlara pis təsir göstərə biləcək nüanslar bundan ibarətdir ki, jurnalist dövlət sirri ilə bağlı nələrəsə toxuna bilməz. Ola bilər, bu hansısa məqamda jurnalistin əl-qolunu bağlayır. Lakin yenicə ayağa durmuş, təzəcə müstəqilləşmiş ölkənin jurnalisti olaraq reyestrdə qoyulan məsələlər hansıdırsa, onlara əməl eləməliyik. Bizdəki qanunvericilik bazası hətta Avropa ölkələrinin bir çoxundakı KİV haqqındakı qanundan irəlidədir. Amma biz indi bundan necə istifadə edirik? Qanun var, qanun bizə iki istiqamətdə yol göstərir: birinci bizə hüquqlar verir, ikinci istiqamət isə qanunun bizə verdiyi məsuliyyətdir. Biz neyləməliyik, qanunun hansı maddələrini nəzərdən qaçırmamalıyıq? Jurnalist məsuliyyəti də qanunda təsbit olunub. Jurnalistikada qəbul edirik ki, informasiya və mətbuat azadlığı var, azad fikir və söz söyləməkdə sərbəstik. İfadələrimizdə bizə heç kim mane ola bilməz, senzura yoxdur, amma ikinci tərəfi-məsuliyyəti isə dərk eləmək istəmirik.

***— Bəlkə elə buna görə fikir və söz azadlığı bəzən anarxiyaya çevrilir...***

— Bəli, bəzən bu, əməlli-başlı anarxiya təsiri bağışlayır. İnsanlar mətbuatda təhqir olunur, böhtana məruz qalır, şəxsi həyatlarına müdaxilə olunur. Yenə bir misalla söhbətimə davam etmək istəyirəm. Günlərin bir günü İngiltərədə kral ailəsindən bir nəfər öz şəxsi bağında gecəyarısı saat 11-də öz sevgilisi ilə birgə paparatsilərə yaxalanır. Həmin adam qəzeti məhkəməyə vermişdi. Təqsirləndirilən qəzet şəxsi həyata müdaxiləyə görə altmış iki min funt sterlinq cərimə almışdı. Bizdə yazırlar: filan nazirin əmisi oğlunun xalası qəza törədib. Bunun nazirə nə dəxli var? Mən bununla hansısa naziri müdafiə eləmirəm, heç nazirin də buna ehtiyacı yoxdur. Amma jurnalistikanın yaradıcılıq prinsipləri baxımından yanaşdıqda deyə bilərik ki, şəxsi həyat toxunulmazdır. Şəxsi həyatının mətbuata çıxmasından bəzən ictimai xadimlər də narazı qalırlar. Əslində onlar inciməməlidirlər. Yəni onların həyatı bir qədər başqadır, ictimai xadimlər ona görə ictimai adlanırlar ki, biz onların şəxsi həyatının bəzi nöqtələrinə, vurğulayıram, yalnız bəzilərinə bələd ola bilərik. Amma onu deməliyik ki, o adamlar gəlib ictimai xadim səviyyəsinə çıxmalıdır ki, onlar buna layiq olsunlar. İctimai xadim hər gün hamının elədiyi, yaxud hansısa bir nadanın da eləyəcəyi bir hərəkətə yol verəcəksə, onda elə yaxşı ki, onu ifşa edirlər. Məni tez-tez çayxanada görürlərsə, heç nə yaza bilməzlər. Çünki dərsimi deyib, işimi qurtarıb, asudə vaxtımı orada keçirirəm. Amma hər hansı bir partiyanın lideri hər gün çayxanada olursa, təsadüfən yox a, hər gün bunu orada görürlərsə, bunu əlbəttə ki, təhlil eləyəcəklər. O lider iddia edə bilməz ki, niyə mənim şəxsi həyatıma müdaxilə olunur? Çünki o, bir partiyanın lideridir və hakimiyyətə gəlmək iddiasındadır. Bir cəmiyyət üzvü olaraq bilmək haqqımdır ki, hakimiyyətə gəlmək istəyən adam hansı gündədir? Bunu jurnalist deyir. Şəxsi həyat məsələsi də nisbi məsələdir. Fərddən fərdə bu dəyişir. Kiminsə, adi bir adamın gavalısını ovcunun içində əzib yeməsindən adi nə var? Amma prezidentin gavalını “şirindimi, turşdumu” deyə yoxlaması, onu yeməsi ictimai maraq kəsb edir. Çünki prezident o qədər ictimai mahiyyətli şəxsdir ki, hər bir hərəkəti maraq doğurur. Cəmiyyətin bir üzvü olaraq bu hadisə mənim marağımı cəlb elədi. Bunu da efirdə elə-belə vermirlər. Bununla ictimaiyyətə göstərilir ki, prezident nə qədər sadə bir insandır. Tutaq ki, mənim nəvəmlə bulvarda gəzməyimi efirə versələr, özümün də gülməyim tutar. Ancaq prezidentin öz nəvələri ilə dənizkənarı parkda əylənməsi ictimai faktdır. Ona görə də adi adamlarla ictimai xadimlərin şəxsi həyatlarında da fərq var. Amma bizim jurnalistlər bəzən heç bir ictimai maraq kəsb eləməyən şəxslərin də özəl həyatını ictimailəşdirməyə çalışırlar. Bəzən də insanların şəxsi həyatının elə məqamlarına toxunurlar ki, bu, qətiyyən yolverilməzdir. Demək istədiyim odur ki, jurnalist fikir və söz azadlığından sui-istifadə eləməməlidir. Jurnalistikamızın dərdi ondan ibarətdir ki, demokratik dəyərlərdən süni şəkildə istifadə edirlər. Elə qəzet var ki, hər nömrəsini əsas gətirib on yerdə məhkəməyə vermək olar. Bizdə məmurlar o zaman məhkəməyə müraciət edirlər ki, vəziyyət lap dözülməz həddə çatır. Bir hadisə heç yadımdan çıxmır. Deyəsən, milli mətbuatmızın 130 illiyi idi. Prezident İlham Əliyev bununla bağlı təşkil olunmuş mərasimdə çıxışında dedi ki, keçid dövrüdür, biz jurnalistlərin bütün tənqidinə dözməliyik. Sonra bir pauza verdi, qeyd elədi ki, onların elə təhqirinə də dözməliyik. Bu, elə-belə deyilmiş gəlişigözəl söz deyildi, bununla prezident məmurlara həm də müəyyən mənada tapşırıq verirdi.

**(Ardı var)**

Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub

# Elnur Məmmədli olimpiadada mübarizəni dayandırdı



Dünən XXX London Yay Olimpiadasında daha iki cüdoçumuz tatami üzərinə çıxıb.

Təmsilçilərimizdən 81 kq çəki dərəcəsində Elnur Məmmədli və 63 kq-da isə Ramilə Yusubova qüvvəsini sınayıblar.

Pekin olimpiadasının qalibi olan Elnur Londonda da bu uğuru təkrarlamaq niyyətində idi. Amma mübarizəyə 1/32 final mərhələsindən qoşulan Elnur elə ilk görüşdən sonra yarışlarda çıxışını başa vurub.

Həmvətənimiz rəqibi ilə bacarmayıb. Hakimlərin rəyi ilə Elnur olimpiadadan kənarda qalıb. Beynəlxalq arenada ciddi bir uğuru olmayan kanadalı Valois-Fortier Antonie ilə qarşılaşma əlavə vaxta — “qızıl xal”a qədər gedib çıxıb. Lakin burada da qalib müəyyənləşməyib. Sonradan hakimlərin qərarıyla Elnurun rəqibi qalib elan olunub.

Elnurdan fərqli olaraq, Ramilə Yusubovanın ilk görüşü uğurlu olub. Mübarizəyə 1/16 final mərhələsindən start verəcək R.Yusubova türkmənistanlı Gülnar Haytbayeva ilə güləşib və bir yuka və vazari xalı ilə rəqibinə qalib gəlib. Ramil növbəti mərhələdə cənubi koreyalı Da-Vun Younqla üz-üzə gəlib. Lakin Ramilə Koreya səddini keçə bilməyib. İdmançımız saxlama fəndi ilə rəqibinə uduzub.

Qeyd edək ki, Londona 8 cüdoçu ilə yollanan millimizin 4 idmançısı artıq mübarizəni dayandırıb.

## "Barselona" kapitanına qovuşdu



“Barselona” klubunun kapitanı Karles Puyol yenidən komandanın düşərgəsinə qayıdıb.

Mayın 12-də sağ dizindən əməliyyat olunan Puyol məşqlərə start verib.

Futbolçunun həkimi artıq Puyolun vəziyyətinin günü-gündən daha da yaxşılığa doğru getdiyini və La Liqanın ilk turu çərçivəsində keçiriləcək “Real” (Sosyedad) klubu ilə görüşdə iştirak edə biləcəyini deyib.

Qeyd edək ki, Puyol zədə səbəbindən “Avro-2012”dən kənarda qalmışdı.

## Zinəddin Zidan "Real"da məşqçiliyə başlayır



“Real” (Madrid) klubunun idman direktoru Zinəddin Zidan məşqçilik fəaliyyətinə start verir.

Daha öncə adı Fransa millisi ilə hallanan Zidan ilk addımını məhz “Real”da atacaq.

Madrid təmsilçisinin rəhbərliyi aşağı yaş qrupları üzrə komandanı Zidana həvalə etməyi planlaşdırır. “Real”ın sabiq futbolçusu ilə bu təklifi müsbət qarşılayıb. Zidan məşqçiliklə yanaşı, idman direktoru vəzifəsini də yerinə yetirəcək.

Qeyd edək ki, 2001-2006-cı illərdə “Real”ın şərəfini qoruyan Zidan keçirdiyi 155 oyunda 37 qola imza atmışdı.

# *Rauf Əliyev:* "Yeni gələnlər gedənlərin yerini doldura biləcək"

**“Qarabağ” klubunun hücumçusu Rauf Əliyevin Qol.Az saytına müsahibəsi.**



***— Türkiyədəki hazırlıq prosesini başa vurdunuz. Təlim-məşq toplanışının çempionatda “Qarabağ”a nə dərəcədə faydası olacaq?***

— Məncə, komandamız yetərincə yüksək səviyyədə təlim-məşq toplanışı keçdi. Bir çox komandayla keçirdiyimiz yoldaşlıq görüşü də bizim üçün vacib idi. Daha çox fiziki hazırlığa üstünlük verdik. Çempionatın başlamasına bir həftə qalıb. Fikrimcə, bu toplanış növbəti mövsüm öncəsi bizim üçün çox faydalı oldu.

***— “Qarabağ”a transfer edilən həm legioner, həm də yerli futbolçular haqda nə deyə bilərsən? Necə düşünürsən, onlar gedən futbolçuların yerini doldura biləcək?***

— Yeni gələn futbolçular baş məşqçi tərəfindən seçilib. Deməli, zəif ola bilməzlər. Mən də toplanış zamanı onların yüksək səviyyədə olduğunu gördüm. Xüsusilə yeni qapıçını qeyd edərdim. Məncə, yeni gələnlər gedənlərin yerini layiqincə doldura biləcək.

***— Klublarımızın avrokuboklarda çıxışları barədə nə deyə bilərsən? İlk öncə “Xəzər Lənkəran”dan başlayaq...***

— Hər iki oyunda “Xəzər Lənkəran”ın qələbə qazanmaq şansı var idi. Bəlkə də komandamızın Polşada erkən qol buraxması, futbolçuları ruhdan saldı. Lakin pis oynamadılar. Sona qədər “döyüşdülər”.

***— Bəs, “İnter”?***

— “İnter” Yunanıstanda yaxşı mübarizə apardı. Hətta oyunun sonlarına doğru bərabərlik qolunu vurmağı da bacardı. Əlavə vaxtda qol vurmaq imkanları olsa da, bundan istifadə edə bilmədilər. Nəticədə oyun penalti seriyalarına getdi ki, bu da artıq lotoreyadır. Necə deyərlər, bəxt.

***— Avrokubokdakı yeganə təmsilçimiz “Neftçi” İsrail çempionu ilə qarşılaşacaq. Bu cütlükdə favorit kimi görürsən?***

— İsrail təmsilçisinin oyununu görmədiyim üçün dəqiq bir söz deyə bilmərəm. Ancaq “Jilina” kimi təcrübəli kluba qalib gəlib, mərhələ adlayırsa, deməli güclü komandadır. Lakin hər şeyə rəğmən, “Neftçi”nin səfərdən sərfəli nəticə ilə qayıdacağına inanıram. Mən heç birinə tam olaraq, üstünlük vermirəm. Hər iki komandanın şansları bərabərdir.

**Əli HƏYATİ**

## ELAN

Ukrayna Respublikası Elm, Təhsil, Mədəniyyət və Turizm nazirliyi, Heydər Əliyev adına Ukrayna-Azərbaycan Təhsil, Elm, Mədəniyyət, İdman Mərkəzi, Beynəlxalq Təhsil və Elm Mərkəzi (Bakı).

Ukrayna, Rusiya dövlət universitetlərində, Vrotslav (Polşa) Dövlət universitetində təhsil almağa dəvət edir (bakalavr, mütəxəssis, magistr, aspirant).

1. T. Şevçenko adına Milli dövlət universiteti (“Milli” statusu universitetlərə ölkə prezidentinin fərmanı ilə verilir).
2. Ukrayna Milli Texniki universiteti.
3. Ukrayna Milli Aviasiya universiteti.
4. Ukrayna Milli Linqvistika universiteti.
5. Ukrayna Milli Memarlıq və İnşaat universiteti.
6. Kiyev Milli Tibb universiteti (Boqomolts adına).
7. Kiyev Dövlət Nəqliyyat universiteti.
8. Kiyev Dövlət Ticarət-İqtisadiyyat universiteti.
9. Bütün Ukrayna vilayət mərkəzlərinin dövlət universitetləri (Odessa, Donetsk, Xarkov, Poltava, Simferopol, Jitomir, Vinnitsa, Lvov, Çerkassı, Dnepropetrovsk və s.).

1. Moskva Memarlıq və İnşaat universiteti.
2. Plexanov adına İqtisadiyyat universiteti.
3. Moskva Tibb universiteti.
4. Moskva Mühəndis-fizika universiteti.
5. Dağıstan Dövlət universiteti.
6. Rusiya Prezidenti yanında dövlət qulluqçuları akademiyası.

1. Vrotslav (Polşa) Dövlət universiteti (universitet təhsili bitirənlərə Polşa, Fransa (ikili) diplomunu və İngiltərə Krallığı Logistika (iqtisadiyyat) və Nəqliyyat institutunun sertifikatını verir).

**İxtisaslar:**

Bütün humanitar, Tibb, İqtisadiyyat, Texniki və başqa ixtisaslar təklif olunur. İxtisaslarla bağlı suallara Xəzər universiteti, Karyera Mərkəzində cavab almaq olar.

Respublikamızdan xaricdə alınan təhsil Beynəlxalq Təhsil və Elm Mərkəzinin (Bakı) universitetlərlə bağladığı Müqavilələr əsasında aparılır. Bu Müqavilələrə əsasən Mərkəzin vasitəçiliyi ilə universitetlərə qəbul olunanlar təhsil müddətində Mərkəzin diqqət mərkəzində saxlanılacaq.

**Ünvan və əlaqə telefonları:**

**1. 8-ci km. qəsəbəsi, Məhsəti küçəsi 11, Xəzər universiteti, Karyera mərkəzi,**

**Sənədlərin qəbulu — Əlövsət müəllim, telefon: 050-321-31-69.**

**2. Tel: (012) 429-66-54, 050-398-32-68, 055-466-26-68.**

**3. Bakıxanov qəsəbəsi, Mehmandarov küçəsi, 23, “Modern” tədris mərkəzi, tel:(012) 511-93-74**

**Adil İsgəndərov adına Mədəniyyət sarayı, tel: (012) 429-86-25 (Bədii rəhbər)**

## Təbrik



Şirin-şəkər Əhməd Tağızadəni iki yaşının tamam olması münasibətilə atası Şəhriyar, anası Sevinc, qardaşı Aydın, babası Aydın, nənələri Hicran, Elmira, əmisi Bəxtiyar, balaca Lamiyyə xanım, Yeganə, bibisi Nigar, dayıları Namiq, Samir ürəkdən təbrik edirlər, ona atalı-analı xoşbəxt ömür arzulayırlar.

**Q□zet 1992-ci il noyabrın 17-d□n çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar □liyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet “Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: “525” şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2589
“TURAN”, “TREND”, AzərTAc, “AssA-İradə”, APA v□ “OLAYLAR”ın informasiyalarından istifad□ olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.